# Tarix-mədəniyyət abidələrinin bərpa xidmətinin həbs olunmuş rəhbərliyinin daha bir cinayəti - Goranboyun Safıkürd qəbiristanlığı...

**Qəbiristanlıqlar hər bir xalqın tarixi keçmişini özündə yaşadan tarixi abidələr olsa da, çox təəssüflər olsun ki, bir çox halda ölkəmizdəki qədim qəbiristanlıqlara əlaqədar qurumların laqeyd münasibətinin şahidi oluruq. Azərbaycanda qədim qəbiristanlıqlar, o qəbiristanlıqlarda qəbirüstü abidələr, türbələr kifayət qədərdir.**

Bu qəbiristanlıqların çoxu aidiyyəti dövlət qurumları tərəfindən qeydiyyata alınsa da, xeyli bir hissəsi qeydiyyatdan kənarda qalıb. Fakt budur ki, əksər vaxtda dövlət qeydiyyatında olan abidələrin özlərinə belə, həmin sahədə təmir-bərpa, mühafizə işi həyata keçirən məsul qurumların biganəlik sərgilədiyi müşahidə olunur. Halbuki, o abidələrin hər birinə ayrıca münasibət olmalıdır. Bundan başqa, yerli bələdiyyələr və icra hakimiyyəti strukturları, regional mədəniyyət idarələri bu prosesdə yaxından iştirak etməli, təhlükəli vəziyyətdə olan abidələri araşdırmalı, yerini müəyyən etməli, onun vəziyyəti ilə bağlı Mədəniyyət Nazirliyinə məlumat verməlidirlər. Bu məsələ də bizdə ürəkaçan səviyyədə deyil. Hamı özünü problemi görməyən kimi aparır və bununla da "mənim xəbərim olmayıb", yaxud "problem yoxdur" kimi rəylər formalaşdırmağa çalışırlar.

Goranboy rayonunun Safıkürd kəndində dağılmaq üzrə olan qədim qəbiristanlıq və oradakı türbə də eyni aqibətlə üzləşib.

Mətbuatda Goranboy rayonunun Safikürd kəndindəki qəbiristanlıqda dağılmaq üzrə olan qədim türbə və tarixi qəbirlərin olduğuna dair məlumatlar yer alıb. Vətəndaşlar qədim məzar daşlarının bir hissəsinin artıq aşdığını, bəzilərinin isə yaxınlığında yeni qəbir yerləri qazıldığı üçün zədələndiyini deyiblər.

Qeyd edilənə görə, Goranboy rayonunun Safıkürd kəndindəki "Köhnə qəbiristanlıq" Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix-mədəniyyət abidələri siyahısına arxeoloji abidə kimi salınsa da, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin biganəliyi ucbatından dağılmaq üzrədir. Burada söhbət qədim qəbirlərdən və türbələrdən gedir.



***Fariz Xəlilli:** "Dövlət Xidmətində baş verən hadisələrdən sonra..."*

***Rizvan Qarabağlı:** "...hər kəs maddi mədəniyyət abidələrini qorumalıdır"*

Ümumiyyətlə, burada söhbət, bütövlükdə, ölkəmizdə qədim qəbiristanlıqlara və türbələrə əlaqədar təşkilatların münasibətindən gedir.

Goranboy rayonunun Safıkürd kəndindəki qədim qəbiristanlıqdakı vəziyyətdən xəbərdar olduğunu deyən MİRAS - Mədəni İrsin Öyrənilməsinə Komək İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda içində türbələr olan tarixi qəbiristanlıqlar çoxdur. "Hazırda onların hamısını konservasiya etmək çox çətin məsələdir. Amma dövlət bu istiqamətdə işlər görür, Avaxıl, Şahxəndan və başqa türbələrdə işlər görülüb. Bu türbələr Azərbaycan tarixində rol oynamış insanlara aiddir. Bu türbələrin konservasiya edilməsi üçün əvvəlcə onların hamısının sənədləşdirilməsi lazımdır. İlk gündən də mənim bu məsələdə fikrim belədir ki, Azərbaycanda abidələrin sənədləşdirilmə işi doğru, düzgün, dəqiq aparılmalıdır. Bilirsiniz ki, Dövlət Xidmətində baş verən hadisələrdən sonra bir az qeyri-müəyyənlik var. Amma xidmət bu sahədə işini davam etdirir. Amma Dövlət Xidmətinin Bakıda yerləşən əməkdaş heyəti o qədər də böyük deyil ki, hər şeyə nəzarət etsin. Yəni Dövlət Xidmətinin hər rayonda iki-üç mühafizi var və onlar da nə edə bilər? Sadəcə, baxa bilərlər ki, qəbiristanlıqda 30 daş vardı, yerindədir, abidə keçən dəfə bu qədər çatlamışdı, indi bu qədər çatlayıb, bütün bunlarla bağlı yuxarıya məlumat verə bilərlər. Dövlət Xidmətinin əməkdaşları əsasən kargüzarlıqla məşğul olur, müxtəlif məktublara cavab verirlər. Bu məsələdə hər kəs öz məsuliyyətini başa düşməlidir - rayonlardakı fərdi şəxslərdən tutmuş icmalara qədər. Ən böyük problem yerlərdə icmanın olmamasıdır. Adamdan soruşarlar, sənin bu müqəddəs türbən niyə dağılır, niyə onu dağılmağa qoyursan? Beşon nəfər bir yerə yığışsınlar, Dövlət Xidmətinə müraciət etsinlər ki, müəyyən məbləğ pul toplamışıq, siz əməkdaşlarınızı göndərin, biz bu türbəni bərpa etmək istəyirik. Bir ictimai yanaşma olmalıdır. Bu türbələri dövlət dağıtmır, camaat dağıdır".

F.Xəlilli hesab edir ki, xalq özü türbələrə, maddi-mədəni irsə sahib çıxmalıdır. O hesab edir ki, dövlətin qeydiyyata aldığı abidənin qorunmasında camaat da mühüm rol oynamalıdır: "Hər şeyi dövlətin üzərinə atmaq olmaz. Qəbirüstü abidələrin çoxunun heç üzəri oxunub öyrənilməyib. Kim öyrənəcək bunları? XXI əsrdir, amma o daşların üzərindəki yazıları kim oxuyacaq? Onların üzərində nə yazıldığını hələ də bilmirik. Əlaqədar elmi-tədqiqat institutları bu sahədə nə iş görürlər? Digər tərəfdən, bələdiyyələr nə iş görürlər? Bu məsələləri qabartmaqdan yorulmuşam. Bir də görürsən ki, hansısa abidənin ətrafında qazıntı aparılır. Belə şeylər olmaz. Hər kəs tarixi mədəniyyət abidələrinin vəziyyəti ilə maraqlanmalıdır. İctimai nəzarət gücləndirilməlidir və baş verənlərlə bağlı mühafizlər dövlət qurumlarına məlumat verməlidirlər. Hamı məsuliyyətdən kənarda. İctimaiyyət və icmalar xüsusən də qəbiristanlıqlar və türbələr məsələsində həssas olmalıdırlar".

Tanınmış mütəxəssis Rizvan Qarabağlı da hesab edir edir ki, Safıkürd qəbiristanlığında baş verənlərə çox təəssüflənir. "Bilirsiniz, qədim qəbiristanlıqlar və oradakı türbələr xüsusi mühafizə edilməlidir. Onlar tarixdir, tarixə isə bu cür münasibət göstərilməsi yolverilməzdir. Goranboy rayonunun Safıkürd kəndindəki türbəyə o cür münasibət qəbuledilməzdir. Hesab edirəm ki, bu məsələdə bələdiyyənin də üzərinə az məsuliyyət düşmür. Yerli bələdiyyələr qəbiristanlıqların və oradakı türbələrin qorunmasında xüsusi rol oynamılıdırlar. Bələdiyyələr bu məsələyə ciddi yanaşmalıdırlar. Maddi-mədəni irsə bu cür münasibət göstərənlər məsuliyyət daşıyırlar. Mən ictimaiyyətin də bu məsələyə məsuliyyətlə yanaşmasını arzulayıram. Dövlət Xidmətindən soruşmaq lazımdır ki, niyə o türbələrə, qəbiristanlıqlara belə münasibət göstərilib? Mənə elə gəlir ki, sualın cavabını onlar verməlidirlər. Konstitusiyamızın 77-ci bəndində açıq göstərilir ki, hər kəs maddi mədəniyyət abidələrini qorumalıdır" - deyə R.Qarabağlı vurğuladı.

***İradə SARIYEVA***